HÜQUQ VƏ İNSAN HAQLARI İNSTİTUTU
PUBLİK HÜQUQİ ŞƏXS

HÜQUQ SAHƏSİNDƏ
MƏQALƏ DƏRC EDƏN JURNALLARA DAİR

# MONİTORİNQ HESABATI

Bakı - 2026

## MÜNDƏRİCAT


Giriş............................................................................................... 3
1. Metodologiya........................................................................... 5
2. Hüquq sahəsində məqalə dərc edən jurnallarla əlaqədar hüquqşünaslar arasında keçirilən sorğunun nəticələri....................... 6
2.1. Hüquqşünas kimi təcrübəniz nə qədərdir?............................ 6
2.2. Yaşınız......................................................................... 6
2.3. Vəzifəniz...................................................................... 7
2.4. Siz Azərbaycanın hüquq jurnallarında dərc edilən məqalələri oxuyursunuzmu?........................................................ 7
2.5. Siz daha çox hansı dildə məqalə oxumağa üstünlük verirsiniz?................................................................... 8
2.6. Ən çox oxuduğunuz 5 hüquq jurnalı hansılardır?................... 8
2.7. Azərbaycanda nəşr edilən hüquq jurnallarına məqalə yazmaqda maraqlısınızmı?.................................................... 12
2.8. Jurnal təqdim etdiyiniz məqaləni qəbul edibmi?.................... 12
2.9. Hüquq jurnalları ilə əlaqədar hansı problemləri qeyd edə bilərsiniz?...................................................................... 13
2.10. Sizi maraqlandıran mövzuda məqalə axtarmaq üçün hansı mənbələrdən istifadə edirsiniz?.............................................. 14
2.11. Məqalə yazarkən hansı qaydalardan istifadə edirsiniz?........ 15
2.12. Hüquq və İnsan Haqları İnstitutunun veb-səhifəsində yerləşən "Hüquq jurnallarının vahid elektron bazası"ndan istifadə edirsinizmi?......................................................... 16
2.13. Məqalələri hansı plagiat proqramı ilə yoxlayırsınız?............ 16
2.14. Hüquq jurnallarına dair hansı təklifləriniz var?..................... 17
3. Hüquq sahəsində məqalə dərc edən jurnallar arasında sorğu......... 18
3.1. Jurnalın adı................................................................... 18
3.2. Jurnalın təsis edildiyi il...................................................... 18
3.3. Jurnalın dərc edilmə tezliyi................................................. 19
3.4. Jurnallar məqalələri hansı dillərdə qəbul edirlər?.................. 20
3.5. Jurnal Ali Attestasiya Komissiyasının siyahısında yer alıbmı?..................................................................... 20
3.6. Jurnalın veb-səhifəsi varmı?............................................... 21
3.7. Jurnalın sosial media hesabları varmı?................................. 21
3.8. Jurnala çap üçün məqalə təqdim edilərkən plagiatın olub-olmaması yoxlanılırmı?........................................................ 22
3.9. Jurnala məqalə qəbulu..................................................... 23
3.10. Jurnalda çalışan əməkdaşların sayı.................................... 23
3.11. Redaksiya heyəti ictimai əsaslarla çalışır?.......................... 24

**3.12. Jurnalınız beynəlxalq reytinq və ya databazada yer alırmı?.. 24**
**3.13. Jurnalın fəaliyyətində rastlaşılan əsas problemlər............. 24**
**3.14. Hüquq və İnsan Haqları İnstitutunun veb-səhifəsində yerləşən "Hüquq jurnallarının vahid elektron bazası"ndan istifadə edirsinizmi?...................................................................... 24**
**3.15. Jurnallara abunə olan şəxslərin sayı barədə məlumat........ 25**
**3.16. Jurnalın hər hansı buraxılışının elektron versiyasının oxunma və ya yüklənmə sayı............................................................ 26**
**3.17. Jurnalın satışda olan qiyməti (əgər satılırsa) 27**
**3.18. Jurnalınız beynəlxalq reytinq və ya databazada yer alıbmı?. 27**
**3.19. Jurnalın fəaliyyətində rastlaşılan əsas problemlər................ 28**

**Monitorinqin nəticələrinin qısa xülasəsi............................................... 29**

**Hüquq sahəsində məqalə dərc edən jurnalların siyahısı.................... 30**

HÜQUQ və İNSAN HAQLARI İNSTİTUTU
PUBLİK HÜQUQİ ŞƏXS

# Hüquq sahəsində məqalə dərc edən jurnallara dair

# ÜÇÜNCÜ MONİTORİNQ HESABATI

## Giriş

Bu hesabat ölkədə nəşr olunan hüquq jurnallarının hazırkı vəziyyəti barədə məlumatların toplanması məqsədilə hazırlanmışdır. Hüquqşünaslar **(764 respondent)** və hüquq jurnalları **(19 jurnal)** arasında elektron sorğu keçirməklə hüquq jurnallarının və onlara olan münasibətin qiymətləndirilməsi və 2024-2025-ci illərdə hazırlanmış birinci və ikinci hesabatlarda göstərilən məlumatlarla müqayisəsi hazırkı monitorinqin əsas istiqamətini təşkil edir.

Hesabat üç bölmədən ibarətdir. *Birinci bölmədə* monitorinqin aparılması metodologiyası təsvir edilmişdir. Bu bölmədə monitorinqin məqsədi, aparılma qaydası və təşkili ilə bağlı texniki məsələlərdən bəhs olunur.

*İkinci bölmədə* hüquq sahəsində məqalə dərc edən jurnallarla əlaqədar hüquqşünaslar arasında keçirilən sorğunun nəticələri barədə məlumatlar əks olunur. Bu bölmədə hüquqşünasların iş təcrübəsi, vəzifəsi, hüquq jurnallarında dərc olunan məqalələrin oxunma vəziyyəti, ən çox oxunan jurnallar, jurnallara məqalə yazmaq maraqları, hüquq jurnalları ilə əlaqədar problemlər, jurnalların vahid elektron bazasına olan maraq və hüquqşünasların təklifləri barədə məlumatlar verilir.

*Üçüncü bölmədə* hüquq sahəsində məqalə dərc edən jurnallar arasında keçirilən sorğunun nəticələri barədə məlumatlar qeyd olunur. Bu bölmədə jurnalın adı, təsis edildiyi il, nəşr edilmə tezliyi və dili, Ali Attestasiya Komissiyasının siyahısında yer alması, saytı və sosial-media hesabı, məqalələrin çap üçün təqdim edilməsi və qəbulu, əməkdaşların və abunəçilərin sayı, hər hansı buraxılışın elektron versiyasının oxunma sayı, beynəlxalq reytinq və ya databazada yer alması, eləcə də jurnalların fəaliyyətində rast gəlinən əsas problemlərdən bəhs edilir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda hüquq məqalələri dərc edən 23 jurnaldan yalnız biri ("Baku State University Law Review" jurnalı) beynəlxalq elmmetrik bazada Q4 səviyyəsində yer alır[1].

Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (bundan sonra – AAK) Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısında **hüquq elmləri üzrə jurnalların sayı**[2]

[1] M.Guluzade, "Overview of the current state of legal education and science in Azerbaijan", "Qanun", № 08 (370), 2025. https://www.qanunjurnali.az/az/new/guluzade-mahammad-fakhraddin-overview-of-the-current-state-of-legal-education-and-science-in-azerbaijan

[2] Ümumilikdə, 391 jurnaldan 17-si hüquq elmləri sahəsində dərc olunur. Məlumat üçün bildirək ki, ötən dövrlə müqayisədə jurnal sayının azalmasına səbəb AAK-ın Rəyasət Heyətinin 02.06.2025-ci il tarixli qərarı ilə DOI-si olmayan dövri elmi nəşrlərin ("Nəqliyyat hüququ", "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri" və "Naxçıvan" jurnalı) siyahıdan çıxarılmasıdır. Eyni zamanda, onu da qeyd edək ki, "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalı həmin siyahıya əlavə edilmişdir. Məlumat 2026-cı ilə aiddir. Ətraflı məlumat üçün bax: https://aak.gov.az/single/334

**17-dir, bu rəqəm isə elm sahəsi üzrə 391 jurnalın cəmi 4,3%-ni təşkil edir**[3]. Bu, müxtəlif elm sahələri üzrə məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısında aşağı göstəricilərdən biridir[4].

AAK-ın siyahısında hüquq elmləri sahəsi üzrə yer alan 17 jurnaldan[5] 10-u sorğuda iştirak edən hüquqşünaslar tərəfindən ən az oxunan jurnallar sırasındadır. AAK tərəfindən doktorantlara 5 elmi məqalənin ən azı 3 jurnalda çapı tələbi qoyulur. Monitorinqin nəticələrindən də göründüyü kimi, AAK-ın siyahısına daxil olan bəzi jurnalların hüquqşünaslar tərəfindən ən az oxunmasını nəzərə alsaq, bu hal AAK-ın siyahısına, eləcə də hüquq məqalələri üçün qoyulan tələblərə yenidən baxılmasını zəruri edir.

Respondentlər tərəfindən **ən çox oxunan 5 hüquq jurnalı** sırasında AAK-ın siyahısında olan 4 jurnal - "Qanun" jurnalı, "Azərbaycan Hüquq Jurnalı", "Polis Akademiyasının Elmi xəbərləri" və "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalı yer alır ki, bu da birinci və ikinci hesabat dövrləri ilə müqayisədə aşkar irəliləyişə dəlalət edir. Belə ki, birinci monitorinq dövründə ilk beşlikdə AAK-ın siyahısında olan jurnallardan yalnız biri, ikinci monitorinq dövründə isə üçü yer almışdır.

Sorğuda iştirak edənlərin rəyinə əsasən, ən çox oxunan 5 hüquq jurnalları aşağıdakılardır:

1. "Polis Akademiyasının Elmi xəbərləri" (40.4%);
2. "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalı (39.9%);
3. "Azərbaycan Hüquq jurnalı" (23.6%);
4. "Qanun" jurnalı (22.4%);
5. "Azərbaycan Prokurorluğu" jurnalı (20.7%).

Monitorinqin nəticələri onu deməyə əsas verir ki, hüquq ictimaiyyəti arasında hüquq sahələri ilə bağlı məqalələr oxumağa və yazmağa maraq böyükdür, lakin jurnalların elektron formatda əlçatan olmaması və dərc edilən məqalələrin keyfiyyətinin aşağı olması bu sahənin inkişafına mane olur. Qeyd etmək yerinə düşərdi ki, birinci və ikinci monitorinq dövrünün ən nəzərəçarpan nailiyyətlərindən biri Hüquq və İnsan Haqları İnstitutu tərəfindən hüquq jurnalları üzrə vahid axtarış bazasının yaradılması olmuşdur. 31 yanvar 2026-cı il tarixinə bu elektron bazada 421 jurnal nüsxəsində dərc edilmiş 1446 məqalə yer almışdır.

Eyni zamanda, İnstitutun rəsmi saytında Azərbaycanda nəşr olunan hüquq jurnallarının əlaqə vasitələrinin vahid platformada cəmləşdirilməsi və jurnalların keyfiyyətinin artırılması hədəfinə çatmaq üçün "Hüquq sahəsində elmi məqalələrin tərtib olunmasına dair Qaydalar"ın geniş ictimaiyyətə təqdim edilməsi də öz töhfəsini vermişdir[6].

---

[3] Azərbaycan Respublikasında müxtəlif elm sahələri üzrə məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı https://aak.gov.az/single/422

[4] Ən aşağı yerdə 16 jurnal ilə "Yer elmləri və coğrafiya" və "Psixologiya", sondan ikinci yerdə 17 jurnal ilə "Hüquq elmləri", üçüncü yerdə isə 18 jurnalla "Sənətşünaslıq və memarlıq" sahəsi qərarlaşmışdır.

[5] https://aak.gov.az/single/422

[6] https://lhri.az/az/articles/huquq-sah-sind-elmi-m-qal-l-rin-t-rtib-olunmasina-dair-qaydalar

## 1. Metodologiya

Monitorinqin ümumi məqsədi ölkəmizdə nəşr edilən hüquq jurnalları barədə hüquqşünasların fikir, təklif və iradlarını bir araya toplamaqdan ibarətdir.

Monitorinqin uzunmüddətli məqsədi isə hüququn ayrı-ayrı sahələri üzrə, o cümlədən insan hüquq və azadlıqları sahəsində elmi-tədqiqat potensialının artırılması və hüquq nəşrlərinin yayımının dəstəklənməsindən ibarətdir.

Monitorinq Google Form üzərindən elektron sorğular vasitəsilə həyata keçirilmişdir. Sorğu barədə məlumatlar və sorğunun linkləri İnstitutun saytında və facebook hesabında[7], eləcə də qht.az saytında[8] və Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının instagram hesabında[9] dərc edilmişdir.

Birinci və ikinci monitorinq dövrləri ilə müqayisədə respondentlərin sayında artım müşahidə olunur (birinci monitorinqdə 109 hüquqşünas və 13 jurnal, ikinci monitorinqdə 152 hüquqşünas və 18 jurnal iştirak etmişdir). Hüquqşünaslar üçün hazırkı sorğuda 764 respondent, jurnallar üçün sorğuda ümumilikdə 19 jurnal iştirak etmişdir. Hüquq jurnallarının təsisçilərinin, baş redaktorlarının və hüquqşünasların iştirakı ilə keçirilən tədbirdə hüquq sahəsində məqalə dərc edən jurnallarla bağlı mövcud vəziyyətin keçən monitorinq dövrü ilə müqayisəli geniş təhlili və bu sahədə işlərin yaxşılaşdırılması üçün təkliflər irəli sürülmüşdür.

Monitorinqdə hüquqşünasların təcrübəsi, hüquq jurnallarında dərc olunan məqalələrin oxunması və yazılması vəziyyəti, hüquq jurnalları ilə bağlı problemlər və s. təhlil olunur.

Cari monitorinq **23 yanvar – 3 fevral** 2026-cı il tarixlərində keçirilmişdir.

---

[7] https://www.facebook.com/share/p/1AVLfNNykU/

[8] https://www.qht.az/details/az/47984

[9] https://www.instagram.com/p/DUASD_njMoD/?igsh=MTRmM2M3MnEyM2pkbw==

## 2. Hüquq sahəsində məqalə dərc edən jurnallarla əlaqədar hüquqşünaslar arasında keçirilən sorğunun nəticələri

### 2.1. Hüquqşünas kimi təcrübəniz nə qədərdir?

| | | |
|---|---|---|
| • 0-5 il | 362 | 47.4% |
| • 6-15 il | 216 | 28.3% |
| • 16 il və daha çox | 186 | 24.3% |
| **Cəmi** | **764 nəfər** | |




### 2.2. Yaşınız

Sorğuda iştirakla bağlı yaş məhdudiyyəti tətbiq olunmayıb.

| | | |
|---|---|---|
| • 18-35 yaş | 444 | 58.1 % |
| • 36-55 yaş | 284 | 37.2 % |
| • 56 yaş və daha çox | 36 | 4.7% |
| **Cəmi** | **764 nəfər** | |

**Respondentlərin yaş üzrə bölgüsü**



### 2.3. Vəzifəniz

Sorğuda hakimlər, vəkillər, tədqiqatçılar, prokurorlar, hüquq fakültələrinin tələbələri və digər sahələrdə çalışan hüquqşünaslar iştirak etmişlər. Ən çox iştirakçı vəkillər, hüquq tələbələri və digər sahələrdə çalışan hüquqşünaslar arasında müşahidə olunmuşdur. Belə ki, sorğu iştirakçılarının 29.2%-ni vəkillər, 25.8%-ni hüquq fakültələrinin tələbələri, 24.9%-ni digər sahələrdə çalışan hüquqşünaslar, 11.9%-ni prokurorlar, 7.2%-ni hüquq tədqiqatçıları və 1%-ni hakimlər təşkil edib.




### 2.4. Siz Azərbaycanın hüquq jurnallarında dərc edilən məqalələri oxuyursunuzmu?

Son dövrlərdə ictimai fikirdə jurnallara olan marağın aşağı olması və onların oxunmaması barədə rəylər formalaşmışdır. Bu məsələnin araşdırılması üçün sorğuya məhz belə bir sual daxil edilmişdi. Respondentlərin 81.5%-i Azərbaycanın hüquq jurnallarında dərc edilən məqalələri oxuduqlarını bildirmişlər. Bu göstəricinin özü hüquq sahəsində dərc olunan məqalələrə və hüquq jurnallarına olan marağı ifadə edir. Belə ki, ötən ilin monitorinq nəticələri ilə hazırkı statistik məlumatlar arasında böyük fərq müəyyən edilməmişdir (birinci monitorinq dövründə respondentlərin 71.6%-i, ikinci monitorinq dövründə isə 70.4%-i yerli jurnallarda dərc edilən məqalələri oxuduqlarını bildirmişdir). Sorğu iştirakçılarının 18.5%-nin (birinci monitorinq dövründə respondentlərin 28,4%-i, ikinci monitorinq dövründə isə 29.6%-i) bu məqalələri oxumaması, əsasən, müxtəlif səbəblərlə (42 %), jurnalların əlçatanlığının məhdudluğu (33.6 %) və bəzi hallarda məqalələrin keyfiyyətinin aşağı olması (14.9%) ilə əlaqələndirilir.

| | | | |
|---|---|---|---|
| a) | Bəli | 623 | 81.5 % |
| b) | Xeyr | 141 | 18.5% |
| | **Cəmi** | **764** | |




**2.5. Siz daha çox hansı dildə məqalə oxumağa üstünlük verirsiniz?**

Respondentlərin 86%-i hüquqi məqalələri Azərbaycan dilində oxumağa üstünlük verdiyi halda, 8,4% respondent ingiliscə, 4.6% respondent rusca, 1% respondent isə digər dillərdə məqalə oxumağa üstünlük verdiyini bildirdi.

**2.6. Ən çox oxuduğunuz 5 hüquq jurnalı hansılardır?**

Respondentlərə təqdim olunan 23 hüquq jurnalından hər bir hüquqşünasın ən çox oxuduğu 5 jurnal barədə fikirləri öyrənilib. Respondentlərin ən çox oxuduğu jurnallar sırasında birinci yeri 40.4% göstərici ilə "Polis Akademiyasının Elmi xəbərləri" jurnalı tutur. Ən çox oxunan jurnalların sırasındakı ilk beşlikdə "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalı öz mövqeyini qoruyub saxlayır (bu nəşr cari ildə keçirilən sorğuda respondentlərin 39.9%-nin müsbət rəyini qazanaraq ən çox oxunan ikinci jurnal olmuşdur). Əldə olunan nəticələrin müqayisəsi onu göstərir ki, öncəki monitorinq dövründə "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalı 57,2% göstərici ilə birinci yeri tutmuşdur. Eyni zamanda, onu da qeyd etməliyik ki, həmin siyahıda üçüncü yerdə "Azərbaycan Hüquq jurnalı 23.6% və dördüncü yerdə isə 22.4% göstərici ilə "Qanun" jurnalı qərarlaşmışdır. "Qanun" jurnalı ödənişli jurnaldır və buna baxmayaraq, hüquqşünaslar bəzi pulsuz jurnallarla müqayisədə ona daha çox üstünlük verirlər. Ümumilikdə isə, AAK-ın siyahısında hüquq elmləri sahəsi üzrə yer alan 17 jurnaldan[10] 10-u sorğuda iştirak edən hüquqşünaslar tərəfindən ən az oxunan jurnallar sırasındadır.

Respondentlər tərəfindən **ən çox oxunan 5 hüquq jurnalı** sırasında AAK-ın siyahısında olan 4 jurnal – "Polis Akademiyasının Elmi xəbərləri" jurnalı, "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalı, "Qanun" jurnalı və "Azərbaycan Hüquq Jurnalı" yer alır ki, bu da birinci hesabat dövrü ilə müqayisədə aşkar irəliləyişin göstəricisidir. Belə ki, birinci monitorinq dövründə ilk beşlikdə AAK-ın siyahısında olan jurnallardan yalnız biri, ikinci monitorinq dövründə isə üçü yer almışdır.

[10] https://aak.gov.az/single/422

Beləliklə, sorğuda iştirak edənlərin rəyinə əsasən, ən çox oxunan beş hüquq jurnalı aşağıdakılardır:

1. “Polis Akademiyasının Elmi xəbərləri” jurnalı (40.4%);
2. “Azərbaycan Vəkili” elmi-praktik hüquq jurnalı (39.9%);
3. “Azərbaycan Hüquq jurnalı” (23.6 %);
4. “Qanun” elmi hüquq jurnalı (22.4%);
5. “Azərbaycan prokurorluğu” jurnalı (20.7%).


"Sosial elmlər" jurnalı
1
1
7
"Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri" jurnalı
2
2
7
"Naxçıvan" jurnalı (Naxçıvan Muxtar Respublikası Ali Məclisi)
2
2
"Gənc tədqiqatçı" jurnalı
0
3
10
"Elmi əsərlər. İctimai elmlər seriyası" jurnalı
5
3
11
"Nəqliyyat hüququ" jurnalı
5
4
13
"Cəmiyyət və cəza" jurnalı
5
4
36
"Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri" jurnalı
7
5
33
"Elmi məcmuələr" jurnalı
5
6
7
"AMEA-nın Məruzələri" jurnalı
7
8
38
"Hüquqi elmlər və təhsil" jurnalı
9
9
32
"Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı
4
12
26
"Bakı Universitetinin xəbərləri (sosial-siyasi elmlər seriyası)" jurnalı
11
13
40
"Qanunçuluq" jurnalı
32
17
85
"Polis Akademiyasının Elmi Xəbərləri" jurnalı
16
20
309
"ELSA Azerbaijan Law Review"
20
23
46
"Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalı
9
28
158
"İnjuria" jurnalı
26
30
"Beynəlxalq hüquq və inteqrasiya problemləri" jurnalı
8
30
62
"Baku State University Law Review"
37
42
72
"Azərbaycan Hüquq Jurnalı"
13
57
180
"Qanun" jurnalı
49
59
171
"Azərbaycan vəkili" jurnalı
38
87
305
0
50
100
150
200
250
300
350
2024
2025
2026

Statistikadan da göründüyü kimi, bir çox jurnallarda (“Polis Akademiyasının Elmi xəbərləri” jurnalı, “Azərbaycan Prokurorluğu” jurnalı, “Beynəlxalq hüquq və inteqrasiya problemləri” jurnalı, “Azərbaycan Hüquq Jurnalı”, “Azərbaycan Vəkili” elmi-praktik hüquq jurnalı, “Qanunçuluq”, “Hüquq elmləri və təhsil” və “Qanun” jurnalı və s.) nəzərəçarpan irəliləyiş var.

Tələbə olmayan hüquqşünasların ən çox oxuduğu jurnallar da eyni olaraq qalır. Lakin burada “Azərbaycan vəkili” jurnalı birinci yerdə yer alıb.

**Tələbələrin rəyi nəzərə alınmadan olan göstəricilər**



**2.7. Azərbaycanda nəşr edilən hüquq jurnallarına məqalə yazmaqda maraqlısınızmı?**

Respondentlərin 61.9%-i Azərbaycanda nəşr olunan hüquq jurnallarına məqalə yazmaqda maraqlı olduqlarını bildirmişlər. Bu göstərici hüquq sahəsində dərc olunan məqalələrə və hüquq jurnallarına olan marağı ifadə edir. 38.1% iştirakçı isə məqalə yazmaqda maraqlı olmadıqlarını qeyd etmişlər. Bunun da əsas səbəbi kimi bəzi hallarda jurnalların reytinqinin aşağı olması göstərilib. Hazırkı göstəricilər birinci və ikinci monitorinq dövrü üzrə faiz nisbəti ilə müqayisədə məqalə yazmaqda maraqlı olan şəxslərin sayının azaldığını göstərir (keçirilən son monitorinqdə respondentlərin 73%-i məqalə yazmaqda maraqlı olduqlarını, 27% isə maraqlı olmadıqlarını bildirmişdilər).

| | | | |
|---|---|---|---|
| a) | Bəli | 473 | 61.9 % |
| b) | Xeyr | 291 | 38.1 % |
| | **Cəmi** | **764** | |




**2.8. Jurnal təqdim etdiyiniz məqaləni qəbul edibmi?**

Monitorinq zamanı hüquq jurnallarında məqalələrin qəbulu ilə bağlı vəziyyət də araşdırılmışdır. Respondentlərin 69.2%-i jurnallara bununla əlaqədar müraciət etmədiklərini, 25.8%-i jurnalların onların məqalələrini qəbul etdiklərini, 5%-i isə məqalələrini qəbul etmədiklərini bildirmişlər. 2025-ci ilin monitorinq nəticələri ilə müqayisədə 2026-cı ilin monitorinq nəticələrinə əsasən, məqaləsi çap edilmək üçün qəbul edilən respondentlərin sayının (81 nəfərdən 197 nəfərə), həmçinin məqalənin çapından imtina edilmiş şəxslərin sayının (1 nəfərdən 38 nəfərə) artdığını görə bilirik. Bu müqayisənin nəticələri onu deməyə əsas verir ki, monitorinqin son mərhələsində hüquq jurnallarında məqalələrin qəbulu ilə bağlı aktivlik və qəbul tələbləri artmışdır. Bununla yanaşı, məqalələrin çapından imtina hallarının sayının da yüksəlməsi rəqabətin gücləndiyini və seçim meyarlarının daha sərtləşdiyini göstərir.

Müqayisəli statistika ilə aşağıdakı diaqramdan tanış ola bilərsiniz:




### 2.9. Hüquq jurnalları ilə əlaqədar hansı problemləri qeyd edə bilərsiniz?

"Hüquq jurnalları ilə əlaqədar hansı problemlərin olması" sualına respondentlərin 33.6%-i jurnalları internet resurslarından asanlıqla tapa bilmədiklərini bildirmişlər. Digər bir problem kimi yazılan məqalələrin keyfiyyətinin aşağı olması göstərilir. Respondentlərin 14.9%-i bu fikirdədir. Respondentlərin 42%-i digər problemlərlə yanaşı, jurnalların baha olmasını da qeyd etmişdir (9.4%).




Hazırkı cavablar maraqlı və paradoksal tendensiyaları üzə çıxarmışdır. Belə ki, ilk monitorinq dövründə respondentlərin cəmi 43 nəfəri, ikinci monitorinq dövründə isə

62 nəfəri jurnalları internet resurslarında tapmaqda (məqalələri rahatlıqla tapmaq olmur) çətinlik çəkdiklərini bildirdikləri halda, cari monitorinqdə iştirak edən şəxslərin artıq 257 nəfəri həmin fikri səsləndirmişdir. Maraqlıdır ki, İnstitutun öz saytında da Azərbaycanda nəşr edilən hüquq jurnallarının bir mənbədə toplanması problemə hələ ki öz səmərəli töhfəsini verməmişdir. Buna səbəb kimi jurnalların vahid bazası barədə hüquq ictimaiyyətinin az məlumatlı olmasını göstərmək olar.

Bununla yanaşı, respondentlər arasında yazılan məqalələrin keyfiyyətinin aşağı olması ilə bağlı fikrin populyar olması (bu göstəricinin 2024-cü ildə 43 nəfərdən 2025-ci ildə 62 nəfərə, 2026-cı ildə isə 114-ə qalxması) ona dəlalət edə bilər ki, İnstitutun hazırladığı və öz rəsmi saytında yayımladığı “Hüquq sahəsində elmi məqalələrin tərtib olunmasına dair Qaydalar”dan bir çox yerli jurnallar faydalanmamışdır. Qeyd etmək lazımdır ki, həmin Qaydalar nümunəvi xarakter daşıyır və jurnallardan onu məcburi surətdə tətbiq etmələri tələb olunmur.

### 2.10. Sizi maraqlandıran mövzuda məqalə axtarmaq üçün hansı mənbələrdən istifadə edirsiniz?

Respondentlərin 19.5%-i onları maraqlandıran məqalələri axtarmaq üçün xəbər saytlarından, 19%-i İnstitutun səhifəsində yerləşən bazadan, 18.5%-i beynəlxalq bazalardan, 13.9%-i jurnalların saytlarından və 29.2%-i isə digər mənbələrdən istifadə etdiklərini bildirmişlər.

Göründüyü kimi, hətta axtarış məsələsində respondentlər daha çox xəbər saytlarına üstünlük verirlər. Respondentlərin elmi məqalələrin axtarışı zamanı müxtəlif və pərakəndə mənbələrə üstünlük verməsi bir sıra mənfi nəticələrə səbəb ola bilər. Belə ki, respondentlərin əhəmiyyətli hissəsinin elmi məqalələri xəbər saytları vasitəsilə axtarması istifadə olunan məlumatların etibarlılığı və akademik keyfiyyəti baxımından risklər yarada bilər. Xəbər saytlarında dərc olunan materiallar hər zaman ekspert rəyindən (peer-review) keçmədiyindən, bu mənbələrə istinad elmi tədqiqatların obyektivliyini və etibarlılığını zəiflədə bilər.

Təqdirəlayiq haldır ki, iki ildən az müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, İnstitutun veb-səhifəsində yerləşdirilmiş bazadan istifadə edən respondentlərin sayı 19% təşkil etmişdir. Saytda göstərilən jurnallarda çap olunan məqalələrin onlayn versiyalarının axtarışını asanlaşdırmaq üçün hər bir məqalə sistemə ayrılıqda yerləşdirilmiş və axtarış funksiyası əlavə edilmişdir. Bu da, öz növbəsində, ayrı-ayrı jurnalların saytında məqalə axtarışına sərf olunan vaxtın azaldılmasına və daha səmərəli istifadəsinə imkan yaradır, habelə axtarış prosesini asanlaşdırır.

Aşağıda respondentlərin verilən cavablar üzrə say bölgüsünü diqqətinizə çatdırırıq:




**2.11. Məqalə yazarkən hansı qaydalardan istifadə edirsiniz?**

Bu suala cavab aşağıdakı kimidir:



187 nəfər (24.5%) məqalənin çapı üçün müraciət etdiyi jurnalın öz qaydalarından istifadə edir. Bu da məntiqli yanaşmadır, çünki hər bir jurnalın texniki tələbləri fərqli ola bilər. Jurnalların öz qaydalarından başqa, digər mənbələrə – xaricdə qəbul edilmiş qaydalara (respondentlərin 5.9%-i), həmçinin İnstitutun hazırladığı "Hüquq sahəsində elmi məqalələrin tərtib olunmasına dair Qaydalar"a (respondentlərin 16.8 %-i) istinad yerli jurnalların qaydalarının məqalənin hazırlanması ilə bağlı bütün yarana biləcək suallara cavab vermədiyinin göstəricisi ola bilər. Eyni zamanda, 241 respondentin məqalə yazarkan heç bir qaydadan istifadə etməməsi narahatlıq doğurur və bu məqamın məqalələrin keyfiyyəti ilə birbaşa əlaqəli olmasına dəlalət edir.

### 2.12. Hüquq və İnsan Haqları İnstitutunun veb-səhifəsində yerləşən "Hüquq jurnallarının vahid elektron bazası"ndan istifadə edirsinizmi?

2025-ci ilin monitorinq nəticələrində respondentlərin 50,7%-i sözügedən bazadan istifadə etdiyini bildirdiyi halda, 2026-ci ilin monitornq nəticələrində bu göstəricidə cüzi azalma müşahidə olunur (49.7%).

| | | | |
|---|---|---|---|
| a) | Bəli | 380 | 49.7 % |
| b) | Xeyr | 384 | 50.3 % |
| | **Cəmi** | **764** | **100 %** |

### 2.13. Məqalələri hansı plagiat proqramı ilə yoxlayırsınız?

Respondentlərin yarıdan çoxu (73.4%-i) məqalələrini plagiat proqramı ilə yoxlamadığını bildirmişdir. Bu proqrama müraciət edən respondentlər istifadə etdikləri bəzi plagiat yoxlayıcı proqramların adlarını bizimlə bölüşmüşlər:

| № | Plagiat yoxlayıcı proqramın adı | Onlardan istifadə edən respondentlərin sayı |
|---|---|---|
| 1 | Plagiarism.org | 7 |
| 2 | Turnitin.com | 7 |
| 3 | Strike.com | 16 |
| 4 | Quillbot.com | 1 |
| 5 | Compilatio.net | 1 |
| 6 | Antiplagiat.ru | 2 |
| 7 | Plagscan.com | 1 |
| 8 | Plag.ai | 1 |

**2.14. Hüquq jurnallarına dair hansı təklifləriniz var?**

628 respondent (82%) tərəfindən ən çox verilən ümumiləşdirilmiş təklifləri diqqətinizə çatdırırıq:

1. Doktrinal təkliflər irəli sürən, yeni nəzəriyyələr formalaşdırmağa yönələn məqalələrin artırılması;
2. Beynəlxalq indeksli bazalara daxil olmağın yollarının müəyyən edilməsi;
3. Təbliğat üçün kifayət qədər resurs ayrılması;
4. "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalının bir nüsxəsinin vəkil bürolarına göndərilməsinin təmin edilməsi;
5. İnstitutun "Hüquq jurnallarının vahid elektron bazası" barədə məlumatlandırma fəaliyyətinin artırılması və bu baza haqqında dövlət qurumlarının rəsmi internet saytlarında müvafiq keçidlərin yerləşdirilməsi;
6. Jurnallarda "Məhkəmə təcrübəsi və şərhlər" adlı daimi rubrika yaradılması. Məsələn, "Ali Məhkəmə qərarlarının hüquqi analizi".
7. "E-Qanun" informasiya sistemi ilə inteqrasiyanın təmin edilməsi. Yəni," E-Qanun.az" saytında yerləşdirilmiş normativ aktlara baxış zamanı şəxsləri maraqlandıran normalarla bağlı mövcud elmi məqalənin tapılması rahat olsun.

## 3. Hüquq sahəsində məqalə dərc edən jurnallar arasında sorğu

### 3.1. Jurnalın adı

Sorğuda iştirak etmək üçün 22 hüquq jurnalına sorğunun linkləri göndərilmişdir. Sorğunu aşağıdakı 19 jurnal cavablandırmışdır:

1. “Elmi məcmuələr” jurnalı;
2. “Azərbaycan Vəkili” elmi-praktik hüquq jurnalı;
3. “ELSA Azərbaycan Hüquq Jurnalı” (ELSA Azerbaijan Law Review);
4. “Azərbaycan Hüquq Jurnalı”;
5. “Beynəlxalq hüquq və inteqrasiya problemləri” jurnalı;
6. “Hüquqi müstəvi” jurnalı;
7. “Hüquqi Elmlər və Təhsil” jurnalı (Juridical Sciences and Education);
8. “Baku State University Law Review”;
9. “Gənc tədqiqatçı” jurnalı;
10. “Qanun” elmi hüquq jurnalı;
11. “Nəqliyyat hüququ” jurnalı;
12. “Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalı;
13. “Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri” jurnalı;
14. “Sosial elmlər” jurnalı;
15. “Elmi əsərlər” jurnalı;
16. DİN-in “Polis Akademiyasının Elmi Xəbərləri” jurnalı;
17. “AMEA-nın Məruzələri” jurnalı;
18. “Azərbaycan prokuroru”;
19. “Azərbaycan Prokurorluğu”.

Aparılmış sorğunun nəticələrinə əsasən müəyyən edilmişdir ki, **“Qanunçuluq” jurnalı** öz fəaliyyətini dayandırmışdır.

### 3.2. Jurnalın təsis edildiyi il

Sorğuda iştirak edən 2 jurnal – “Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri” və “Qanunçuluq” jurnalları nəzərəçarpacaq tarixə malikdir. Ümumilikdə, 19 jurnaldan 4-ü 2000-ci ilə qədər, 15 jurnal isə 2000-ci ildən sonrakı dövrdə təsis olunub. Bu barədə məlumatlar aşağıdakı cədvəldə verilir:

| S/n | Təsis edildiyi il | Jurnalın adı |
|---|---|---|
| 1. | 1945 | “AMEA-nın Məruzələri” jurnalı |
| 2. | 1960 | “Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri” jurnalı |
| 3. | 1992 | “Qanun” elmi hüquq jurnalı |
| 4. | 1997 | Naxçıvan Dövlət Universitetinin “Elmi əsərlər” jurnalı |
| 5. | 2000 | “Elmi məcmuə” jurnalı |
| 6. | 2002 | “Azərbaycan Hüquq Jurnalı” |
| 7. | 2003 | “Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalı |

| | | |
|---|---|---|
| 8. | 2003 | “Hüquqi elmlər və təhsil” jurnalı; Juridical Sciences and Education; Юридические науки и образование |
| 9. | 2004 | “Nəqliyyat hüququ” jurnalı |
| 10. | 2005 | “Beynəlxalq hüquq və inteqrasiya problemləri” jurnalı |
| 11. | 2012 | DİN-in “Polis Akademiyasının Elmi Xəbərləri” jurnalı |
| 12. | 2013 | “Azərbaycan Vəkili”  elmi-praktik hüquq jurnalı |
| 13 | 2013 | “Azərbaycan prokurorluğu” |
| 14. | 2014 | Baku State University Law Review |
| 15. | 2015 | “Gənc tədqiqatçı” jurnalı |
| 16. | 2016 | “ELSA Azərbaycan Hüquq Jurnalı” (ELSA Azerbaijan Law Review) |
| 17. | 2019 | AMEA-nın “Sosial elmlər” jurnalı |
| 18. | 2019 | “Hüquqi müstəvi” jurnalı |
| 19 | 2021 | “Azərbaycan prokuroru” |

### 3.3. Jurnalın dərc edilmə tezliyi

Sorğuda iştirak edən 19 jurnaldan 8-i rüblük (42,1 %), 10 jurnal (52.6 %) ilin müəyyən dövrlərində, 1 jurnal isə (5.3 %) aylıq nəşr olunur (“Qanun” jurnalı). Aylıq dərc edilən jurnal yalnız “Qanun” jurnalıdır  və bu jurnal ödənişli olmasına baxmayaraq,  hüquqşünasların daha çox üstünlük verdiyi jurnallardan biridir.



### 3.4. Jurnallar məqalələri hansı dillərdə qəbul edirlər?

Sorğuda iştirak edən jurnalların demək olar ki, əksəriyyəti məqalələri Azərbaycan dili ilə yanaşı, digər dillərdə də dərc edirlər (95 %)[11]:




### 3.5. Jurnal Ali Attestasiya Komissiyasının siyahısında yer alıbmı?

Sorğuda iştirak edən jurnallardan 15-i AAK-ın siyahısında yer alır:




Öncəki monitorinqin göstəriciləri ilə müqayisədə məlum olmuşdur ki, sorğuda iştirak edən jurnallar arasında AAK-ın siyahısında qeydə alınmış jurnalların payı 6.8%

---

[11] Onlardan rus dilində məqalə dərc edənlərin sayı sorğuda iştirak edənlərin 79%-ni təşkil edir.

artmışdır[12] (72,2%-dən 79 %-ə qalxmışdır). 2025-ci ildə "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalı AAK-ın siyahısına əlavə edilmişdir.

### 3.6. Jurnalın veb-səhifəsi varmı?

Monitorinq nəticəsində sorğuda iştirak edən 19 jurnaldan 18-nin veb-səhifəsinin olduğu məlum olmuşdur. 1 jurnalın isə ("ELSA Azərbaycan Hüquq Jurnalı") veb-səhifəsinin olmadığı qeyd edilir. Öncəki monitorinq dövrü ilə müqayisədə veb-səhifəsi olmayan jurnalların faiz nisbəti azalmışdır (5,6%-dən 5.3%-ə düşmüşdür):




### 3.7. Jurnalın sosial media hesabları varmı?

Rəyi soruşulan 19 jurnaldan cəmi 4-nün sosial media hesablarının olduğu, 15 jurnalın isə sosial media hesabının olmadığı müəyyən edilmişdir. Maraqlı bir faktı vurğulamaq olar ki, ilkin monitorinq dövründə sorğuda iştirak etmiş 13 jurnalın 54%-də (say göstəricisi – 7), ikinci monitorinq dövründə 18 jurnalın 38.9%-də (say göstəricisi – 7) sosial media hesabları olduğu halda, hazırkı sorğuda iştirak edən 19 jurnalın cəmi 21%-də (say göstəricisi – 4) sosial media hesablarının olduğu məlum olmuşdur. 3.5-ci bənddə qeyd olunan göstəricilərə əsasən (sorğu iştirakçıları arasında AAK-ın siyahısında göstərilən jurnalların sayının azalması) hazırkı sual AAK-ın siyahısında göstərilən nüfuzlu jurnallar barədə geniş hüquq ictimaiyyətinin digər jurnallarla müqayisədə az məlumatlı olmasının səbəbləri ilə bağlı mülahizə yürütməyə imkan yaradır. Belə ki, sorğuda iştirak edən hüquqşünasların verdiyi təkliflər sırasında

[12] Sorğuda iştirak edən "Nəqliyyat hüququ" və "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri" jurnalları AAK-ın siyahısında olduqlarını qeyd etsələr də, AAK-ın mövcud siyahısında həmin jurnalların adı qeyd edilməmişdir. https://aak.gov.az/single/422

məqalə qəbulu elanının sosial şəbəkələrdə paylaşılmasının və həmçinin jurnalların marketinqinin gücləndirilməsinin göstərilməsi jurnalın əlçatan olmasında sosial media hesablarının vacibliyini bir daha vurğulayır:




**3.8. Jurnala çap üçün məqalə təqdim edilərkən plagiatın olub-olmaması yoxlanılırmı?**

Rəyi soruşulanların yalnız **84.3%-i** məqalə təqdim edərkən plagiat yoxlamaya cəlb olunduğunu bildirmişdir:.



### 3.9. Jurnala məqalə qəbulu

Sorğuda iştirak edən jurnalların **78.9%-i** jurnalların məqalələri ödənişsiz qəbul etdiyini qeyd edir:




### 3.10. Jurnalda çalışan əməkdaşların sayı?

Bir çox jurnalda (19 jurnaldan 11-də) çalışan əməkdaşların sayı 0-5 arasında dəyişir:



**3.11. Redaksiya heyəti ictimai əsaslarla çalışır?**

Bütün jurnallarda redaksiya heyətlərinin ictimai əsaslarla çalışdığı qeyd olunur.

**3.12. Jurnalınız beynəlxalq reytinq və ya databazada yer alırmı:**

Sorğuda iştirak edən 11 jurnal (58%) beynəlxalq databazada yer aldığını bildirmişdir. Bunlar aşağıdakılardır:

1. "Elmi məcmuələr" jurnalı
2. "Azərbaycan Prokuroru" jurnalı;
3. "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalı;
4. "Hüquqi elmlər və təhsil" jurnalı; Juridical Sciences and Education; Юридические науки и образование;
5. "Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı"; (Baku State University Law Review);
6. "Azərbaycan Hüquq Jurnalı";
7. "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri";
8. "Beynəlxalq hüquq və inteqrasiya problemləri";
9. "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı;
10. Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalı;
11. DİN-in "Polis Akademiyasının Elmi xəbərləri" jurnalı.

**3.13. Jurnalın fəaliyyətində rastlaşılan əsas problemlər**

İlk sırada göndərilən məqalələrin standartlara cavab verməməsi problemi **36.8%** qərarlaşır. İkinci yerdə çap üçün maliyyə vəsaitlərinin azlığı problemi **26.3%**-lə dayanır. Daha sonra isə yenə də maliyyə problemləri göstərilmişdir, lakin bu dəfə həmin problemlər jurnalın təbliği ilə bağlı idi (jurnalın təbliği üçün maliyyə çatışmazlığı-**10.5** %).

**3.14. Hüquq və İnsan Haqları İnstitutunun veb-səhifəsində yerləşən "Hüquq jurnallarının vahid elektron bazası"ndan istifadə edirsinizmi?**

Sorğuda iştirak edən jurnalların 79%-i, yəni 15 jurnal "Hüquq jurnallarının vahid elektron bazası"ndan istifadə etdiyini, 21% isə, yəni 4 jurnal istifadə etmədiyini bildirmişdir.

### 3.15. Jurnallara abunə olan şəxslərin sayı barədə məlumat

| S/N | Jurnalın adı | Abunə haqda məlumat |
|---|---|---|
| 1. | DİN-in “Polis Akademiyasının Elmi Xəbərləri” jurnalı | 5500+ |
| 2. | “Azərbaycan Vəkili” elmi-praktik hüquq jurnalı | Abunəlik tətbiq edilmir. |
| 3. | “Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalı | 295 |
| 4. | “Elmi məcmuələr” jurnalı | (100) |
| 5. | “Qanun” elmi hüquq jurnalı | (32) |
| 6. | “ELSA Azərbaycan Hüquq Jurnalı” | Abunəlik tətbiq edilmir. |
| 7. | “Hüquqi müstəvi” jurnalı | Tam məlum deyil. |
| 8. | “Nəqliyyat hüququ” jurnalı | Tam məlum deyil. |
| 9. | “Azərbaycan Hüquq Jurnalı” | Abunəlik tətbiq edilmir. |
| 10. | “Hüquqi elmlər və təhsil” jurnalı; Juridical Sciences and Education; Юридические науки и образование | Abunəlik tətbiq edilmir. |
| 11. | “Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı” (Baku State University Law Review ) | Abunəlik tətbiq edilmir. |
| 12. | “Gənc tədqiqatçı” jurnalı | 200+ |
| 13. | “Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri” jurnalı | - - |
| 14. | “Beynəlxalq hüquq və inteqrasiya problemləri” jurnalı | Abunəlik tətbiq edilmir. |
| 15. | AMEA-nın “Sosial elmlər” jurnalı | Abunəlik tətbiq edilmir. |
| 16. | Naxçıvan Dövlət Universitetinin “Elmi əsərlər” jurnalı | Abunəlik tətbiq edilmir. |
| 17. | “AMEA-nın Məruzələri” jurnalı | Abunəlik tətbiq edilmir. |
| 18. | “Azərbaycan Prokuroru” jurnalı | Abunəlik tətbiq edilmir. |
| 19. | “Azərbaycan Prokurorluğu” jurnalı | 250 |

**3.16. Jurnalın hər hansı buraxılışının elektron versiyasının oxunma və ya yüklənmə sayı**

Cavablardan məlum olur ki, rəyi soruşulan 19 jurnaldan cəmi 4-nün sosial media hesabları var. 15 jurnalın isə heç bir sosial media hesabı yoxdur. Ən çox oxunma sayı AMEA-nın Məruzələri (6824), DİN-in "Polis Akademiyasının Elmi Xəbərləri" (6500+) və "Azərbaycan prokuroru" jurnalında (450-500) qeydə alınıb.

| S/N | Jurnalın adı | Oxunma sayı |
|---|---|---|
| 1. | "Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı" (Baku State University Law Review ) | Müəyyən etmək mümkün deyil. |
| 2. | "Azərbaycan Hüquq Jurnalı" | Müəyyən etmək mümkün deyil. |
| 3. | "Beynəlxalq hüquq və inteqrasiya problemləri" jurnalı | Müəyyən etmək mümkün deyil. |
| 4. | "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalı | Müəyyən etmək mümkün deyil. |
| 5. | "Hüquqi müstəvi" jurnalı | Müəyyən etmək mümkün deyil. |
| 6. | "Nəqliyyat hüququ" jurnalı | Müəyyən etmək mümkün deyil. |
| 7. | "Elmi məcmuə" jurnalı | 15 |
| 8. | "Qanun" elmi hüquq jurnalı | 32 |
| 9. | "Gənc tədqiqatçı" jurnalı | 100+ |
| 10. | "Hüquqi elmlər və təhsil" jurnalı; Juridical Sciences and Education; Юридические науки и образование | Müəyyən etmək mümkün deyil. |
| 11. | AMEA-nın "Sosial elmlər" jurnalı | Müəyyən etmək mümkün deyil. |
| 12. | Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalı | Müəyyən etmək mümkün deyil. |
| 13. | "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri" jurnalı | - |
| 14. | DİN-in "Polis Akademiyasının Elmi Xəbərləri" jurnalı | 6500+ |
| 15. | AMEA-nın "Məruzələr" jurnalı | Oxunma sayı 6824, yüklənmə sayı 5977 |
| 16. | "ELSA Azerbaijan LAW REVIEW" jurnalı | Müəyyən etmək mümkün deyil. |
| 17. | "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı | Müəyyən etmək mümkün deyil. |
| 18. | "Azərbaycan Prokuroru" | 450-500 |
| 19. | "Azərbaycan Prokurorluğu" | 150 |

### 3.17. Jurnalın satışda olan qiyməti (əgər satılırsa)

Sorğuda iştirak edən jurnallardan yalnız 2-nin satışı ödənişlidir, digər jurnalların hamısı ödənişsiz qaydada paylanılır. Ən bahalı jurnal ("Hüquqi elmlər və təhsil" jurnalı) 20 manata satılır.

| S/N | Jurnalın adı | Jurnalın qiyməti |
|---|---|---|
| 1. | "Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı" (Baku State University Law Review ) | Ödənişsiz |
| 2. | "Azərbaycan Hüquq Jurnalı" | Ödənişsiz |
| 3. | "Beynəlxalq hüquq və inteqrasiya problemləri" jurnalı | Ödənişsiz |
| 4. | "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalı | Ödənişsiz |
| 5. | "Hüquqi müstəvi" jurnalı | Ödənişsiz |
| 6. | "Nəqliyyat hüququ" jurnalı | Ödənişsiz |
| 7. | "Elmi məcmuə" jurnalı | Ödənişsiz |
| 8. | "Qanun" elmi hüquq jurnalı | **Ödənişli** |
| 9. | "Gənc tədqiqatçı" jurnalı | Ödənişsiz |
| 10. | "Hüquqi elmlər və təhsil" jurnalı; Juridical Sciences and Education; Юридические науки и образование | **Ödənişli** |
| 11. | AMEA-nın "Sosial elmlər" jurnalı | Ödənişsiz |
| 12. | Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalı | Ödənişsiz |
| 13. | "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri" jurnalı | Ödənişsiz |
| 14. | DİN-in "Polis Akademiyasının Elmi Xəbərləri" jurnalı | Ödənişsiz |
| 15. | AMEA-nın "Məruzələr" jurnalı | Ödənişsiz |
| 16. | "ELSA Azerbaijan LAW REVIEW" jurnalı | Ödənişsiz |
| 17. | "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı | Ödənişsiz |
| 18. | "Azərbaycan Prokuroru" jurnalı | Ödənişsiz |
| 19. | "Azərbaycan Prokurorluğu" jurnalı | Ödənişsiz |

### 3.18. Jurnalınız beynəlxalq reytinq və ya databazada yer alıbmı?

Sorğuda iştirak edən 8 jurnal beynəlxalq databazada mövcud deyil. Jurnalların beynəlxalq reytinq və databazada yer alması 11 jurnalda müşahidə olunub:

- "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalı;
- "Hüquqi elmlər və təhsil" jurnalı;
- "Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı" (Baku State University Law Review)[13];

[13] "Baku State University Law Review" jurnalı Scopus elmi nəşrlər bazasında yer alır. Scopus-un metriklərinə görə, bu jurnal hüquq (Social Sciences – Law) sahəsində Q4 kvartilinə yerləşdirilmişdir.

- “Elmi məcmuə” jurnalı;
- Naxçıvan Dövlət Universitetinin “Elmi əsərlər” jurnalı;
- DİN-in “Polis Akademiyasının Elmi xəbərləri” jurnalı;
- “Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalı;
- “Beynəlxalq hüquq və inteqrasiya problemləri" jurnalı;
- “Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri” jurnalı;
- “Azərbaycan Prokurorluğu” jurnalı;
- "Azərbaycan Hüquq Jurnalı".

| | | | |
|---|---|---|---|
| a) | Bəli | 11 | 57.8 % |
| b) | Xeyr | 8 | 42.1 % |
| | **Cəmi** | **19** | **100%** |

### 3.19. Jurnalın fəaliyyətində rastlaşılan əsas problemlər

Jurnalların fəaliyyətində rastlaşılan əsas problemlər qismində çap üçün maliyyə vəsaitlərinin azlığı və dərc edilmək üçün redaksiyaya göndərilən məqalələrin standartlara cavab verməməsi qeyd olunur.



## Monitorinqin nəticələrinin qısa xülasəsi

- Hüquq və İnsan Haqları İnstitutu tərəfindən yaradılmış "Hüquq jurnallarının vahid elektron bazası"nın faydaları qeyd olunur;
- Hüquq sahəsində dərc olunan məqalələrə hüquqşünaslar tərəfindən böyük maraq göstərildiyi müşahidə edilir;
- Jurnallarda dərc edilən məqalələrin keyfiyyətinin aşağı olması göstərilir;
- Əksər jurnalların sosial media hesablarının mövcud olmadığı qeyd edilir;
- Bir çox jurnalların beynəlxalq databazada yer almadığı müşahidə olunur;
- Jurnalların nəşri üçün maliyyə vəsaitinin çatışmazlığı qeyd olunur;
- "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalının bir nüsxəsinin vəkil bürolarına göndərilməsi təklif olunur;
- İnstitutun "Hüquq jurnallarının vahid elektron bazası" barədə məlumatlandırma fəaliyyətinin artırılması və bu baza haqqında dövlət qurumlarının rəsmi internet saytlarında müvafiq keçidlərin yerləşdirilməsi təklif olunur;
- Jurnallarda "Məhkəmə təcrübəsi və şərhlər" adlı daimi rubrikanın yaradılması təklif olunur;
- "E-Qanun" informasiya sistemi ilə inteqrasiyanın təmin edilməsi təklif olunur.

## Hüquq sahəsində məqalə dərc edən jurnalların SİYAHISI

| S/n | Jurnalın adı | Telefonu | E-mail ünvanı və internet səhifəsi |
|---|---|---|---|
| 1. | “AMEA-nın “Məruzələr” jurnalı” | (012) 492 80 07 | ameakatib@mail.ru https://dergipark.anas.az/index.php/anasreports |
| 2. | “Azərbaycan Hüquq Jurnalı” | (012) 538 31 10 (050) 331 31 66 | al.amir.ibr@gmail.com turgay@legcon.org https://ahj.az/az/ |
| 3. | “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalı | (012) 361 14 02 | htihm@prosecutor.gov.az https://genprosecutor.gov.az/az/page/media/azerbaycan-prokurorlugu-jurnali |
| 4. | “Azərbaycan Prokuroru” jurnalı | (012) 361 14 02 | https://genprosecutor.gov.az/az/page/media/azerbaycan-prokuroru-jurnali |
| 5. | “Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülleteni” | (012) 489-07-07 | contact@supremecourt.gov.az https://supremecourt.gov.az/az/ali-mehkeme/nesrler/ali-mehkemenin-bulletenleri |
| 6. | “Azərbaycan Vəkili” elmi-praktik hüquq jurnalı | (012) 594 08 70 (050) 266 77 99 | office@barassociation.az https://barassociation.az/journal |
| 7. | “Bakı Universitetinin xəbərləri (sosial-siyasi elmlər seriyası)” jurnalı | (012) 538 87 39 (012) 538 50 16 | bdumetbee@gmail.com http://bsu.edu.az/az/ /content/bak_universitetinin_xbrlri_sosialsiyasi_elmlr_seriyas |
| 8. | “Baku State University Law Review” jurnalı | (055) 394 00 35 | info@bsulawreview.org www.facebook.com/bsulr https://lr.bsulawss.org/ https://www.facebook.com/bsulr |
| 9. | “Beynəlxalq hüquq və inteqrasiya problemləri” jurnalı | (050) 331 31 66 (055) 340 50 44 | al.amir.ibr@gmail.com info@jilip.org http://jilip.org/az/ |
| 10. | “Cəmiyyət və cəza” jurnalı | (012) 493 24 86 | info@penitensiar.justice.gov.az https://penitensiar.justice.gov.az/home/1 |
| 11. | “Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı” | (012) 492 65 29 (012) 437 19 75 (012) 497 71 86 | publishing@dia.edu.az https://dia.edu.az/arxivl%C9%99r/research/ dovlet-idareciliyi-nezeriyye-ve-tecrube-jurnali |
| 12. | “Elmi əsərlər. İctimai elmlər seriyası” jurnalı | (036) 545 45 59 (036) 544 08 61 (055) 947 71 59 | www.jurnal.ndu.edu.az/# elmieserler@ndu.edu.az |

| | | | |
|---|---|---|---|
| 13. | “Elmi məcmuələr” jurnalı | (012) 525 98 08 | em@naa.edu.az<br>https://science.naa.edu.az/az/elmi-m%C9%99cmu%C9%99l%C9%99r/ |
| 14. | “ELSA Azerbaijan Law Review” jurnalı | (070) 359 59 11 | lawreview@az.elsa.org<br>www.facebook.com/ELSAAzerbaijanLawReview<br>https://issuu.com/elsaazerbaijan |
| 15. | “Gənc tədqiqatçı” jurnalı | (050) 450 50 64 | genctedqiqatchi@gmail.com<br>gencalim@science.az<br>https://gencalimler.az/az/content/318 |
| 16. | “Hüquqi elmlər və təhsil” jurnalı | (012) 496 95 74<br>(050) 340 36 99 | mopi_sid@yahoo.com<br>https://www.iolr.org/?page_id=3346 |
| 17. | “Hüquqi müstəvi” jurnalı | (012) 533 97 90<br>(050) 210 24 42 | a-etibar@rambler.ru<br>https://law-plane.az/ |
| 18. | “Qanun” elmi hüquq jurnalı | (012) 431 16 62<br>(055) 695 27 97 | qanunhuquqjurnali@gmail.com<br>https://qanunjurnali.az/ |
| 19. | “Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri” jurnalı | (012) 598 53 72 | info@expert.gov.az<br>https://expert.gov.az/jurnal |
| 20. | “Nəqliyyat hüququ” jurnalı | (012) 533 97 90<br>(050) 210 24 42 | a-etibar@rambler.ru<br>https://law-plane.az/ |
| 21. | “Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri” jurnalı | (055) 465 85 27 | info@oyu.edu.az<br>https://oyu.edu.az/az/journals |
| 22. | “Polis Akademiyasının Elmi xəbərləri" jurnalı” | (012) 454 34 57<br>(012) 554 99 84 | policeacademy@pa.edu.az<br>https://www.pa.edu.az/?/az/menu/100/ |
| 23. | “Sosial elmlər” jurnalı | (012) 492 51 80<br>(055) 558 10 80 | socialsciences.anas@gmail.com<br>https://socialsciences.az/ |

HÜQUQ VƏ İNSAN HAQLARI İNSTİTUTU
PUBLİK HÜQUQİ ŞƏXS

| İnstitutun saytı | Virtual kitabxana | Facebook səhifəsi |
|---|---|---|
| www.lhri.az | https://lhri.az/az/library | fb.com/www.lhri.az |

**“Hüquq və İnsan Haqları İnstitutu” publik hüquqi şəxs**
AZ1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti 125
info@lhri.az
www.lhri.az
+994125372073